**Azərbaycan Respublikası**
**Auditorlar Palatası Şurasının**
**2019-cu il 22 fevral tarixli**
**308/7 nömrəli qərarı ilə (əlavə və dəyişikliklər)**
**təsdiq edilmişdir.**

Yeni fəaliyyətə başlayan auditorlara əməli köməkliyin
göstərilməsinə dair
P R O Q R A M

## I. Giriş

Proqramın məqsədi **ölkədə korrupsiyaya qarşı mübarizə, kölgə iqtisadiyyatının azaldılması, yeni innovativ metodlardan istifadə və şəffaflığın artırılması sahəsində Auditorlar Palatasının üzvlərinə** (sərbəst auditorlara və auditor təşkilatlarına) **ölkə qanunvericiliyinin, beynəlxalq** audit standartlarının, sahəvi audit proqramlarının, informasiya-kommunikasiya texnologiyalarının, beynəlxalq audit ~~və mühasibat uçotu~~ təcrübəsinin, **Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının təsdiq etdiyi təlimatların, qaydaların, metodik göstərişlərin və.s** tətbiqinə dair əməli köməklik göstərilməsindən ibarətdir.

Proqram yeni fəaliyyətə başlayan **sərbəst** auditorlara **və auditor təşkilatlarına** əməli köməkliyin göstərilməsi barədə Auditorlar Palatasının Beynəlxalq Mühasiblər Federasiyasının (İFAC) qarşısındakı 1 saylı Üzvlük Tələblərinə ~~və İFAC-a təqdim edilmiş Tədbirlər Planının 16-cı maddəsinə~~ müvafiq olaraq tərtib edilmiş **və Palatanın müvafiq struktur bölməsi tərəfindən bu Proqramda nəzərdə tutulmuş məsələlərin əyani surətdə onlara çatdırılmasını müəyyən edir.**

Bu Proqram sərbəst auditorlar və auditor təşkilatlarına **auditor fəaliyyəti göstərmək üçün icazə (xüsusi razılıq) verildiyi gündən bir həftə müddətində** aşağıdakı sahələr üzrə əməli köməklik göstərilməsini **və öz peşə fəaliyyətlərində tətbiq edilməsini** nəzərdə tutur:

## II. Metodik təminat

1. Beynəlxalq audit standartlarının (BAS) tətbiqi;
2. Maliyyə hesabatlarının beynəlxalq standartlarının (MHBS) tətbiqi üzrə qanunvericilik;
3. Sahəvi audit proqramlarının tətbiqi;
4. ~~Audit üzrə beynəlxalq və qabaqcıl yerli təcrübənin tətbiqi;~~
5. Peşə etikası norma və standartlarının tətbiqi ~~istiqamətində~~;
6. Sahibkarlıq fəaliyyətinə dair normativ hüquqi sənədlərin tətbiqi;
7. Beynəlxalq peşəkar qurumların normativ sənədlərinin təminatı;
8. **Auditorlar Palatası Şurasının 2015-ci il 30 sentyabr tarixli 266/1 saylı qərarı ilə təsdiq edilmiş "Audit komitəsi haqqında nümunəvi Əsasnamənin hazırlanması" barədə (ƏSASNAMƏ);**
9. **Auditorlar Palatası Şurasının 2015-ci il 30 sentyabr tarixli 266/2 saylı qərarı ilə təsdiq edilmiş "Əlaqəli xidmətlərin göstərilməsini tənzimləyən normativ metodik bazanın yaradılması" barədə (METODİK GÖSTƏRİŞ);**

10. Auditorlar Palatası Şurasının 2015-ci il 20 oktyabr tarixli 267/2 saylı qərarı ilə təsdiq edilmiş "Auditin aparılması və sənədləşdirilməsinə dair Təlimat" barədə (TƏLİMAT);

11. Auditorlar Palatası Şurasının 2015-ci il 25 noyabr tarixli 269/3 saylı qərarı ilə təsdiq edilmiş "Turizm müəssisələrində audit aparılmasına dair proqram" barədə (PROQRAM);

12. Auditorlar Palatası Şurasının 2016-cı il 11 mart tarixli 274/1 saylı qərarı ilə təsdiq edilmiş "Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sisteminin tətbiqi" barədə;

13. Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin 2016-cı il 1 avqust tarixli 10 saylı əmri ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun auditorlar tərəfindən tətbiqinə dair Metodik Tövsiyələr;

14. Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin 2016-cı il 1 avqust tarixli 10 saylı əmri ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizədə auditin təşkilinə dair Metodik Göstəriş";

15. Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar" barədə (Keyfiyyətə kənar nəzarət son), (CƏDVƏL 2), (KONFİDENSİAL), (BKNS), (BƏYANNAMƏ);

16. Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/3 saylı qərarı ilə təsdiq edilmiş "Auditin keyfiyyətinə daxili nəzarətin həyata keçirilməsi haqqında Təlimat" layihəsinin müzakirəsinə dair (TƏLİMAT);

17. Auditorlar Palatsı Şurasının 2016-cı il 21 noyabr tarixli 281/3 saylı qərarı ilə təsdiq edilmiş "Könüllü və əlaqəli auditor xidmətlərinin genişləndirilməsi üzrə təbirlər sisteminin tətbiqi" barədə (METODİK GÖSTƏRİŞ);

18. Auditorlar Palatası Şurasının 2016-cı il 21 noyabr tarixli 281/4 saylı qərarı ilə təsdiq edilmiş "Firmadaxili audit standartlarının hazırlanması" barədə (METDOİK GÖSTƏRİŞ) 240, 250, 260, 500;

19. Auditorlar Palatası Şurasının 2016-cı il 21 dekabr tarixli 283/5 saylı qərarı ilə təsdiq edilmiş "Dempinq və haqsız rəqabətə qarşı mübarizəyə dair tədbirlər sistemi" barədə (MÜRACİƏT), (PLAN-PROQRAM), (TƏLİMAT);

20. Auditorlar Palatası Şurasının 2016-cı il 27 dekabr tarixli 284/5 saylı qərarı ilə təsdiq edilmiş "Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurasının (IAASB) təsdiq etdiyi Yenilənmiş Beynəlxalq Audit Standartlarının tətbiqi" barədə (BAS 700), (BAS 701), (BAS 705), (BAS 706);

21. Auditorlar Palatası Şurasının 2017-ci il 31 yanvar tarixli 285/5 saylı qərarı ilə təsdiq edilmiş "Auditor xidməti bazarında haqsız rəqabətin əlamətləri barədə" (ƏLAVƏ);

22. Auditorlar Palatası Şurasının 2017-ci il 31 mart tarixli 286/2 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədləri" barədə (MİNİMUM HƏDDLƏR);

23. Auditorlar Palatası Şurasının 2017-ci il 19 may tarixli 287/4 saylı qərarı ilə təsdiq edilmiş "Auditə ictimai etimadın gücləndirilməsi və auditin təşviqi" barədə (ƏLAVƏ);

24. Auditorlar Palatası Şurasının 2017-ci il 30 iyun tarixli 288/1 saylı qərarı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə daxili nəzarət sisteminin qurulmasına və tətbiqinə dair metodik göstəriş" barədə (METODIK GÖSTƏRİŞ);

**25. Auditorlar Palatası Şurasının 2017-ci il 30 iyun tarixli 288/2 saylı qərarı ilə təsdiq edilmiş "Audit sahəsində müsabiqə qaydaları və auditor seçimi üzrə metodik göstəriş" barədə (QAYDALAR);**

**26. Auditorlar Palatası Şurasının 2017-ci il 30 iyun tarixli 288/3 saylı qərarı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı kooperativlərində auditin aparılmasına dair Təlimat" barədə (TƏLİMAT);**

**27. Auditorlar Palatası Şurasının 2017-ci il 30 iyun tarixli 288/4 saylı qərarı ilə təsdiq edilmiş "Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi"nə Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2017-ci il 31 yanvar tarixli 285/3 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti bazarında haqsız rəqabətin əlamətləri" ilə bağlı dəyişikliklər edilməsi barədə (ƏLAVƏ);**

**28. Auditorlar Palatası Şurasının 2017-ci il 25 avqust tarixli 289/1 saylı qərarı ilə təsdiq edilmiş "Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalara dair Qayda" barədə (QAYDA);**

**29. Auditorlar Palatası Şurasının 2017-ci il 25 avqust tarixli 289/2 saylı qərarı ilə təsdiq edilmiş "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidmətlərinin dəyərinin tövsiyyə olunan minimum hədlərindən aşağı qiymətə bağlanmış audit müqavilələrinin tədqiqi üzrə metodik göstəriş" barədə (METODİK GÖSTƏRİŞ);**

**30. Auditorlar Palatası Şurasının 2017-ci il 25 avqust tarixli 289/3 saylı qərarı ilə təsdiq edilmiş "Auditorların "Öz müştərini tanı" və müştəri qəbulu siyasətinin formalaşdırılmasına dair metodik göstəriş" barədə (METODİK GÖSTƏRİŞ);**

**31. Auditorlar Palatası Şurasının 2017-ci il 19 oktyabr tarixli 291/3 saylı qərarı ilə təsdiq edilmiş "Auditorlara sifarişçi və benefisiar mülkiyyətçilərin eyniləşdirilməsi, verifikasiyasına dair metodik göstəriş" barədə (METDOİK GÖSTƏRİŞ);**

**32. Auditorlar Palatası Şurasının 2017-ci il 19 oktyabr tarixli 291/5 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Auditorlar Palatasında Mətbuat xidmətinin yaradılması və «İqtisadiyyat və audit» qəzetinin təsis edilməsi" barədə;**

**33. Auditorlar Palatası Şurasının 2017-ci il 20 dekabr tarixli 295/2 saylı qərarı ilə təsdiq edilmiş "Auditorlar Palatasının üzvləri arasında dempinq və haqsız rəqabətin yolverilməzliyi barədə bağlanacaq partnyorluq sazişi" barədə (PARTNYORLUQ SAZİŞİ);**

**34. Auditorlar Palatası Şurasının 2018-ci il 13 avqust tarixli 303/2 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Auditorlar Palatasının Keyfiyyətə nəzarət üzrə Appelyasiya Komissiyasının Əsasnaməsi" barədə (Əsasnamə);**

**35. Auditorlar Palatası Şurasının 2018-ci il 14 noyabr tarixli 305/5 saylı qərarı ilə təsdiq edilmiş "Auditor təşkilatlarında PL/TM-ə qarşı mübarizə sahəsində daxili nəzarət sisteminin səmərəliliyinin müəyyən edilməsi üzrə metodik vəsait" barədə (Metodik vəsait);**

**36. Auditorlar Palatası Şurasının 2018-ci il 14 noyabr tarixli 305/6 saylı qərarı ilə təsdiq edilmiş "Nümunəvi firmadaxili audit standartlarının hazırlanması" barədə (Standart);**

**37. Auditorlar Palatası Şurasının 2018-ci il 11 dekabr tarixli 306/2 saylı qərarı ilə təsdiq edilmiş "İdxal-ixrac əməliyyatlarının auditi üzrə metodik vəsait" barədə (Metodik vəsait);**

**38. Auditorlar Palatası Şurasının 2018-ci il 27 dekabr tarixli 307/3 saylı qərarı ilə təsdiq edilmiş "Dələduzluq risklərinin qiymətləndirilməsi üzrə metodik vəsaitin hazırlanması" barədə (Metodik vəsait);**

**39. Auditorlar Palatasının Şurası və Palatanın sədri tərəfindən təsdiq edilmiş, sərbəst auditorlar və auditor təşkilatları üçün zəruri olan digər sənədlər.**

## III. Hüquqi təminat

1. Sərbəst auditorların və auditor təşkilatlarının maliyyə (mühasibat), vergi, statistik və s. hesabatlarının tərtibi və təqdim edilməsi;

2. **2004-cü il 29 iyun tarixli «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikasının Qanununun və ona edilmiş əlavə və dəyişikliklərin;** ~~(kassa kitabının aparılması; bank sənədləri; onların ardıcıl aparılması); mədaxil və məxaric sənədlərinin düzgünlüyü; xərc maddələrinin düzgün tətbiq edilməsi; büdcəyə və büdcədənkənar fondlara və vergi ayırmalarının hesablanması; əsas vəsaitlərin mədaxil və məxarici, onlara amortizasiya hesablanması; əmək haqqı və əmək haqqından tutulmalar; maya dəyərinə daxil edilən xərclər; mənfəət və mənfəətdən ayırmalar);~~

3. Auditor xidməti göstərilməsi üzrə müvafiq sənədlərin uçotu;

4. **Auditorlar Palatası Şurasının 2018-ci il 12 iyun tarixli 301/1 saylı qərarı ilə təsdiq edilmiş "Auditor təşkilatları və sərbəst auditorların fəaliyyətlərini əks etdirən yarımillik (illik) hesabat forması və hesabatın tərtib edilməsinə dair Təlimat"a uyğun olaraq,** ~~sərbəst auditorların və auditor təşkilatlarının fəaliyyətini əks etdirən yarımillik (illik)~~ hesabatların **vaxtında** tərtibi və təqdim edilməsi;

5. Vergi bəyannamələrinin **vaxtında** tərtibi və təqdim edilməsi;

~~6. Nəzarət kitabçasının istifadə edilməsi;~~

6. **Auditorlar Palatası Şurasının 1998-ci il 21 aprel tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Auditorlar Palatası üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə Təlimat" və ona 2005-ci il 31 avqust tarixli 152/5 saylı, 2006-cı il 29 dekabr tarixli 175/7 saylı, 2007-ci il 29 dekabr tarixli 188/1 saylı, 2011-ci il 20 dekabr tarixli 226/4 saylı, 2012-ci il 16 noyabr tarixli 236/9 saylı qərarlarla edilmiş əlavə və dəyişikliklər barədə sərbəst auditorlar və auditor təşkilatlarının məlumatlandırılması və onların** Palataya ödənilməli olan üzvlük haqqının **vaxtında** hesablanıb ödənilməsi;

**7. Sərbəst auditorların və auditor təşkilatlarının Palatanın keçirdiyi tədbirlərdə iştirakı (konfrans, seminar, simpozium, dəyirmi masa, ixtisasartırma kursu, ictimai tədbirlər və.s);**

**8. Auditorlar Palatası Şurasının 2018-ci il 5 oktyabr tarixli 304/1 saylı qərarı ilə təsdiq edilmiş "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti müqaviləsinin bağlanılmasına dair Auditorlar Palatasının məlumatlandırılması "Qaydası" və "Forması"nın vaxtında tərtibi və təqdim edilməsi;**

**9. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 may tarixli 333-IIIQ saylı "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununa sərbəst auditorlar və auditor təşkilatları tərəfindən riayət edilməsi və şəhadətnamənin təqdim edilməsi;**

**10. Auditorlar Palatası Şurasının 2009-cu il 26 yanvar tarixli 197/5 saylı "Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planının (2007- 2011-ci illər)" 48-ci "Qanunvericiliyə uyğun olaraq məcburi auditin obyekti olan təsərrüfat subyektlərinin auditdən yayınma hallarının qarşısının alınması üçün tədbirlərin görülməsi" yarımbəndinin, o cümlədən Azərbaycan Respublikası Mülki Məcəlləsinin 91.4-cü "Məhdud məsuliyyətli cəmiyyət illik maliyyə hesabatının düzgünlüyünü yoxlatmaq üçün hər il əmlak mənafeləri ilə cəmiyyətə və ya onun iştirakçılarına bağlı olmayan peşəkar auditor cəlb etməlidir (kənar audit)...." maddəsinin tələblərinə məhdud məsuliyyətli cəmiyyət təşkilati-hüquqi formasında olan auditor təşkilatları tərəfindən riayət olunmasının təmin edilməsi" barədə qərarına auditor təşkilatları tərəfindən riayət olunması və hesabatın (rəyin) təqdim edilməsi;**

**11. Sərbəst auditorlar və auditor təşkilatlarında dəyişikliklər baş verdiyi təqdirdə Palatanın məlumatlandırılması (qeydiyyat sənədləri, ünvan, telefon, e-mail, sayt və.s).**

## IV. Texniki təminat

1. İnformasiya – kommunikasiya texnologiyalarının tətbiqi;
2. Sərbəst auditorların və auditor təşkilatlarının əsas vəsaitlərlə təminatı;
3. Sərbəst auditorların və auditor təşkilatlarının audit sahəsi üzrə kitab, jurnal və digər vəsaitlərlə təminatı;
4. **Sərbəst auditorların və auditor təşkilatlarının şəxsi kabinetlə təminatı və ondan istifadəni;**
5. **Sərbəst auditorların və auditor təşkilatlarının audit proqramları ilə təminatı və ondan istifadəni.**

***Qeyd: Proqrama edilmiş əlavə və dəyişikliklər: qara hərflərlə yazılanlar yeni təklif olunan, üstündən xətt çəkilənlər isə çıxarılanlar, ağ şriftlə yazılanlar isə əvvəlki qalanlardır.***